# 400 çadırla qurulan Dünya dövləti – Osmanlı imperatorluğu



**Elşən Mirişli**
Gəncə şəhəri, tarixçi

***Yalnız Türk tarixinin deyil,bütün dünya tarixinin ən böyük, ən möhtəşəm imperatorluqlarından biri Osmanlı imperatorluğudur. Dünyanın ən uzun ömürlü xanədanı, yəni 623 il davam edən Osmanlı xanədanıdır.***

***Bu möhtəşəm dövləti quran və ona öz adını verən Osman Qazi Oğuz Türklərinin Kayı boyundandır. Kayı, Oğuzların Boz oklar qolundan Gün xanın ən böyük oğlunun adıdır. Mənası möhkəm, sağlam, qüvvətli deməkdir.Simvolu şahin idi.Möhürü başlanğıcda bir şəkildə olarkən,Ərtoğrul Qazi zamanında başqa şəkil almışdı.***

***Orta Asıyada monqol təyziqi artdıqda Türkman dəstələri Anadoluya doğru köç etməyə başlamışdılar.Bunların sırasında Gündüz Alp və oğlu Ərtoğrulun hakimiyyətində Kayı boyundan kiçik bir qəbilə də vardı.***

400 çadırla köçən bu qəbilənin sayı qadın, kişi və uşaqlarla 4000 nəfərdən ibarətdi. Bunlar Əhlət yaxınlığında yerləşdilər və burada bir müddət qaldılar.1230-cu ildə Yassıçəmən meydan savaşında Oğuzların Bəydili boyuna mənsub Cəlaləddin Xarəzmşaha (1220-1231) qarşı Səlcuqlu sultanı Əlaəddin Keyqubadın qoşununun səfində vuruşdular və onun qalib gəlməsində mühüm rolları oldu.

Gündüz Alpın nə zaman öldüyü bilinmir,amma 1230-cu ildə bu savaşda Kayıların başında Ərtoğrul Qazinin dayandığını bilirik.1231-ci ildə Ərtoğrul Qazinin yenə Əlaəddin Keyqubad adına İznik Rum imperatorunun torpaqlarına axınlar etdiyi də məlumdur.

Osmanlılar Oğuz elinin Kayı boyuna mənsub olub XIII əsrdə, yəni Anadolunun Səlcuq sultanı olan I Əlaəddin Keyqubad zamanında başlarında Ərtoğrul bəy olaraq Ankaranın cənub –qərbində olan Qaracadağ nahiyəsində yerləşdilər.Bir müddət sonra Ərtoğrul bəy Səqut şəhərini alıb oranı mərkəz seçdi və Səlcuq sultanına bağlı olub bizanslılarla savaşdı. Ərtoğrul bəy 1281-ci ildə öldü,yerinə Kayıların başına oğlu Osman bəy keçdi və bir müddət sonra Osmanlı bəyliyini quraraq istiqlalını elan etdi (1299).

Bəylik Osman Qazinin bəyliyinin ilk illərindən sonra Konyadakı mərkəzə tabe bir əyalət bəyliyi dərəcəsinə yüksəldi.O illərdə Konyadakı Səlcuqlu sultanı Təbrizdə oturan Elxanlılar (1256-1353) hökmdarı Elxana, o da Pekindəki Böyük Xaqana tabe idi.

Osman bəy və yoldaşları bizanslılarla savaşaraq bir çox şəhər və qəsəbələri əllərinə keçirdilər. Bu zaman Bursa şəhəri Bizansın əlində qalan Anadoludakı ən böyük şəhər idi. Bu şəhəri Osman bəyin oğlu Orxan bəy və ya Orxan Qazi fəth etdi və Osmanlı paytaxtını Bursaya köçürdü (1326).

Orxan bəy 1362- ci ildə öldü və yerinə I Murad keçərək özünü padşah elan etdi.Bir il sonra Ədirnə şəhəri Osmanlıların əlinə keçdi və Türklər Balkanlarda irəliləməyə başladılar.Bu hadisədən sonra Avropa dövlətləri xaçlı səfərlər tərtib edib Türklərə hücum etdilər. Lakin hər dəfəsində məğlub oldular.Sultan Muraddan sonra onun oğlu Yıldırım Bayəzid (1389-1402) padşah olub Balkanlarda Dunay çayına qədər irəli getdi və İstanbulu iki dəfə mühasirə edib,bizanslıları xərac verməyə və İstanbulda bir Türk məhəlləsi qurmağa nail oldu.

***Bu zaman Anadoluda Karaman oğulları hökuməti və Əmir Teymur (1370-1405) Yıldırım Bayəzidi şərqə tərəf dönməyə məcbur etdi. Karaman oğulları dövləti digər Anadolu bəyliklərindən fərqli olaraq,özlərini Səlcuqların varisi bilirdilər və bu cəhətdən XIV əsrdə dəfələrlə osmanlılarla savaşmışdılar.*** Nəhayət əsrin sonunda bütün Anadolu bəylikləri osmanlı hakimiyyəti altında birləşdi. Lakin bu birlik çox davam etmədi və Əmir Teymurun hücumundan sonra yenidən pozuldu.

***Yıldırım Bayəzid Əmir Teymur ordusu ilə Ankaranın şimalında olan Çubukobada qarşılaşdı və çox şiddətli müharibədən sonra məğlub olub əsir düşdü (1402).Əmir Teymur onu mehribanlıqla qarşıladı və səkkiz ay müddətində gəzdiyi Anadoluda özü ilə birlikdə gəzdirdi (Gözaltı və nəzarət altında olaraq).Yıldırım Bayəzid Ağşəhərdə xəstələnib öldü,Teymur isə aldığı şəhərləri yanına gələn bəylərinə verib geri döndü.***

Ankara savaşı adı ilə məlum olan bu savaş Osmanlı tarixində bir dönüş nöqtəsi oldu.Çünki bu savaşdan sonra yeni birləşmiş olan Anadolu bəylikləri birliyi yenidən pozuldu və Osmanlı dövlətində də tac və taxt uğrunda Yıldırım Bəyazidin beş oğlu arasında davalar başladı və nəhayət 1413-cü ildə Mehmed Çələbi I Mehmed (1413-1421) adı ilə padşah oldu.

***Mehmed Çələbi Anadolu və Rumelidə əldən çıxan yerləri geri aldı və Osmanlı birliyini yenidən qurdu.Bu sırada Anadoluda şeyx Bədrəddin üsyan etdi.***

Şeyx Bədrəddin böyük din alimi idi və padşahın əmri ilə İznikdə oturdu.Orada yeni təriqət qurub,gizli şəkildə yaymağa çalışırdı.Şeyx Bədrəddin Osmanlı dövlətində müxtəlif təriqətləri, o cümlədən ələviləri başına yığıb hakimiyyəti əlinə almaq istəyirdi.

Şeyx Bədrəddin üsyanını yatırmaq üçün beş mindən çox müridləri öldürülüb,özü də Sərəz alimlərinin fitvası ilə asılmışdır.

Mehmed Çələbi 1421-ci ildə Ədirnədə öldü və yerinə oğlu II Murad keçdi.

II Muradın sultanlığı zamanı daxili üsyanlar və xarici savaşlarla məşğul oldu. Anadolu işlərini qurtarandan sonra,Rumelinə yürüş etdi və Səlaniki və Makedoniyanı alaraq Osmanlı imperatorluğuna qatdı.

Şərqi Avropalılar bir xaçlı səfəri hazırladılar və orduların başında Macar kralı olduğu halda Osmanlılara hücum edib,Sofiyanı Türklərdən aldılar və sultan II Muradın təklifi ilə barışdılar.Həmin il avropalılar yenidən Varnada Osmanlılara hücum etdilər, lakin məğlub oldular.



**Sultan II Murad Balkanlarda,Yunanıstanda Türk hakimiyyətini yenidən bərpa etdi.Bu sırada Jan Hunyad Macar və Almanlardan ibarət mürəkkəb bir ordu ilə Osmanlılara hücum etdi,lakin ikinci dəfə olaraq Kosovoda məğlub oldu.İkinci Kosovo savaşı Türklərin Balkanlarda qəti olaraq yerləşmələrini təmin etdi və bir daha səlibçilər hücum etməyə cəsarət edə bilmədilər**

Sultan II Murad Balkanlarda,Yunanıstanda Türk hakimiyyətini yenidən bərpa etdi.Bu sırada Jan Hunyad Macar və Almanlardan ibarət mürəkkəb bir ordu ilə Osmanlılara hücum etdi,lakin ikinci dəfə olaraq Kosovoda məğlub oldu.İkinci Kosovo savaşı Türklərin Balkanlarda qəti olaraq yerləşmələrini təmin etdi və bir daha səlibçilər hücum etməyə cəsarət edə bilmədilər.

Sultan II Murad 1451-ci ildə öldü və oğlu Mehmet II Sultan Mehmed (Fateh) adı ilə padşah oldu.Sultan II Murad yaxşı bir şair idi və Türk dili və ədəbiyyatında xidməti vardır.

Sultan II Mehmed Fateh (1444-1446 1451-1481) taxta çıxdığı zaman,Osmanlı dövləti Anadolu və Balkanların ən böyük dövləti halına gəlmişdi.Dövlətin hüdudları Rumeli tərəfdən Dunay çayına qədər genişlənmişdi.Bolqarıstan,Serbiyanın böyük bir qismi,Yunanıstanın bütün orta və şərq qisimləri Osmanlı dövlətinə qatılmışdı.

Sultan II Mehmedın zamanına qədər İstanbul şəhəri dörd dəfə mühasirə edilmiş,lakin alına bilməmişdi.

Sultan II Mehmed İstanbulun fəthi üçün hazırlandı.Bunun üçün boğazın ən dar yerinə vaxtılə Yıldırım Bayəzid tərəfindən Anadoluda tikilən Anadolu hasarının qarşısında Rumeli hasarını tikdirdi və 400 gəmi hazırladaraq,Ədirnədə o zamanın ən böyük toplarını tökdürdü. Sonra bu toplarla bərabər 200 min nəfərlik ordu və 400 gəmi ilə İstanbula hücum etdi.Bu zaman İstanbulun əhalisi 160 min nəfər hüdudunda idi və şəhərdə məzhəb və firqə davaları var idi. ***Bizans imperatoru əhalidən topladığı 30 min silahlı qüvvəsini İstanbul şəhərinin ətrafındakı divarlarda yerləşdirdi. Bu divarların önündə 20 metr genişliyində xəndək var idi.Yunanlar körfəzin ağzını zəncirlə bağlamışdılar.Osmanlı dəniz qüvvələri burada toplaşdı və II Mehmedin təşəbbüsü ilə 72 gəmi quru yerdən,Qalatadan(İstanbulda bir yerin adıdır) körfəzə endirildi.Əvvəlcə yola xüsusi relslər döşəndi və yağlandı.İstanbul daxildən və xaricdən hücuma məruz qaldı.Türklər İstanbulun ətrafındakı qala divarlarını topları ilə yarıb,içəri girdilər və Fateh II Mehmed Aya Sofiya kilsəsinə gedərək,ilk Cümə namazını orada qıldı.29 may 1453-cü ildə İstanbul tamamilə alındı.Bizans imperatoru isə bir Türk əsgəri tərəfindən hərb əsnasında öldürüldü və beləliklə,Bizans imperatorluğu məhv oldu.Sultan II Mehmedə Fateh ləqəbi verildi.***

***İstanbulun fəthini orta çağın sonu-yeni çağın başlanğıcı kimi dünyada qəbul etdilər.***

(ardı var)